*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2026*
*Səh. 353-359*

# ƏDƏBİYYATŞÜNASLIQ

https://doi.org/10.62837/2026.5.353

**GÜLXANI (PƏNAH) VAQIF QIZI ŞÜKÜROVA**
Filologiya üzrə elmlər doktoru. dosent
Azərbaycan Memarlıq və İnşaat Universiteti,
Azərbaycan dili və pedaqogika kafedrasının müəllimi
Email: www.gulxani@outlook.com.
ORCID: https://orcid.org/0000-0002-7766-7247

## ELÇİN HÜSEYNBƏYLİNİN "GÜLTƏKİN XAQAN" ROMANINDA TÜRK BİRLİYİ VƏ TÜRKÇÜLÜK İDEYALARININ BƏDİİ İNİKASI (I hissə)

**XÜLASƏ**

Məqalədə Elçin Hüseynbəylinin *"Gültəkin xaqan"* romanında türk birliyi və türkçülük ideyalarının bədii inikası geniş şəkildə təhlil olunur. Müəllif göstərir ki, tarixi roman janrı milli yaddaşın qorunmasında və milli kimliyin formalaşmasında mühüm rol oynayır. Romanın əsas mənbələrindən biri olan Orxon-Yenisey abidələri qədim türk dövlətçilik ənənələrini, vətənpərvərlik və birlik ideyalarını əks etdirən mühüm yazılı irs kimi təqdim edilir.

Əsərdə Bilgə Kağan və Gültəkin obrazları vasitəsilə güclü dövlətçilik, liderlik, sədaqət və qəhrəmanlıq ideyaları ön plana çəkilir. Roman türk xalqlarının birliyini tarixi, mədəni və siyasi aspektlərdə təqdim edir və göstərir ki, xalqın gücü onun həmrəyliyindədir. Eyni zamanda, əsərdə milli dəyərlərin qorunması, tarixi yaddaşın yaşadılması və gələcək nəsillərin milli şüurunun formalaşdırılması əsas ideya xəttini təşkil edir.

Məqalədə həmçinin romanın modernist xüsusiyyətləri – psixoloji təsvirlər, simvolizm və qeyri-xətti zaman anlayışı qeyd olunur. Nəticə olaraq vurğulanır ki, "Gültəkin xaqan" romanı Azərbaycan ədəbiyyatında türkçülük ideyalarının bədii ifadəsi baxımından mühüm əhəmiyyətə malikdir və müasir dövrdə də aktuallığını qoruyur.

***Açar sözlər:*** *Gültəkin xaqan, Elçin Hüseynbəyli, türkçülük, türk birliyi, tarixi roman, milli kimlik, Orxon-Yenisey abidələri, dövlətçilik, qəhrəmanlıq, modernizm*

## GİRİŞ

Tarixi yaddaş və milli kimlik məsələləri hər bir xalqın ədəbiyyatında mühüm yer tutur. Ədəbiyyat yalnız estetik zövq yaradan bir sənət sahəsi deyil, həm də xalqın keçmişini, mənəvi dəyərlərini və ideoloji düşüncə sistemini qoruyub saxlayan mühüm vasitədir. Xüsusilə tarixi roman janrı bu baxımdan böyük əhəmiyyət kəsb

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2026*
*Səh. 353-359*

edir. Tarixi roman vasitəsilə müəlliflər keçmiş hadisələri bədii şəkildə canlandıraraq oxuculara yalnız məlumat vermir, eyni zamanda onların milli düşüncəsini formalaşdırır və tarixi şüurun inkişafına təsir göstərirlər.

Azərbaycan ədəbiyyatında tarixi mövzulu romanların yaranması və inkişafı milli özünüdərk prosesinin mühüm mərhələlərindən biri kimi qiymətləndirilə bilər. Bu əsərlərdə xalqın keçmişi, qəhrəmanlıq ənənələri və dövlətçilik tarixi bədii şəkildə təqdim olunur. Müasir Azərbaycan nəsrində bu istiqamətdə yazılmış diqqətəlayiq əsərlərdən biri yazıçı Elçin Hüseynbəylinin "Gültəkin xaqan" romanıdır.

**ƏSAS HİSSƏ**

Yazıçı-dramaturq, publisist, Elçin Hüseynbəyli mövzunu bizim qədim Orxon-Yenisey abidələrimizin mətnlərindən götürmüş olsa da, onlardan birinə (Kül Tigin) yeni ruh, yeni modernist imkanlar aşılamışdır. Bilgə Kağan, Kül Tigin və Tonyukuk kitabələri qədim türk yazılı abidələridir və əsasən Göytürk dövrünə aiddir. Bu abidələr qədim türklərin yazılı mədəniyyətinin başlanğıcını təşkil edir və onların siyasi, mənəvi və ictimai həyatını əks etdirən nadir tarixi nümunələr sayılır. Daş üzərində həkk olunmuş bu yazılar vasitəsilə türklərin qəhrəmanlıq ruhu, dövlətçilik ənənələri və dünyagörüşü günümüzə qədər gəlib çatmışdır.

Orxon-Yenisey abidələri türk dünyasının ortaq tarixi yaddaşını əks etdirən ən mühüm yazılı irs nümunələrindən biridir və türk-Azərbaycan xalqının milli kimliyinin formalaşmasında xüsusi rol oynayır. Bu abidələrdə əks olunan dil xüsusiyyətləri, düşüncə tərzi və dəyərlər müasir Azərbaycan dilinin və mədəniyyətinin kökləri ilə sıx bağlıdır. Qədim türk dünyasının dövlətçilik ənənələri, vətənpərvərlik, birlik və ədalət kimi prinsipləri bu yazılarda aydın şəkildə ifadə olunur. Abidələrdə təqdim olunan ideyalar Azərbaycan xalqının tarixi yaddaşında qorunub saxlanmış, onun etnik-mədəni özünüdərkinin əsas dayaqlarından birinə çevrilmişdir. Bu irs bu gün də təhsil sistemində, ədəbiyyatda, folklorda və elmi araşdırmalarda yaşadılır və gələcək nəsillərə ötürülməsi vacibdir.

Eyni zamanda Orxon-Yenisey abidələri yalnız keçmişin yadigarı deyil, həm də müasir dövrdə milli və mənəvi dəyərlərin qorunmasında mühüm rol oynayan bir mədəni körpüdür. Onlar türk xalqlarının ortaq tarixini, dilini və mədəniyyətini birləşdirən, dünya tarixində silinməz iz qoymuş əbədi abidələr kimi yüksək dəyərləndirilir.

Orxon-Yenisey abidələri VIII əsrdə Orta Asiyada, Orxon və Yenisey çayları ətrafında yaradılmışdır. Bu abidələr türk runik əlifbası ilə yazılmış olub, əsasən hökmdarların və görkəmli şəxsiyyətlərin xatirəsinə ucaldılmışdır. Onlar qədim türk dilinin, mədəniyyətinin və tarixinin öyrənilməsi baxımından ən etibarlı və dəyərli mənbələrdən biri hesab olunur.

Orxon-Yenisey abidələri çox geniş bir ərazini əhatə edir. Bu yazılı nümunələrin əsas hissəsi Orxon vadisi ərazisində yerləşir, digər hissəsi isə Yenisey çayı boyunca, xüsusilə Sibir və Tuva bölgələrində yayılmışdır. Ən tanınmış kitabələr

– Bilgə Kağan, Kül Tigin və Tonyukuk abidələri məhz Orxon vadisində yerləşir. Yenisey bölgəsində tapılan abidələr isə əsasən qəbir daşları, qısa yazılar və müxtəlif işarələrdən ibarətdir.

Bu abidələrdə qəhrəmanlıq, dövlətçilik ənənələri, ata-babaların xatirəsi və milli kimlik məsələləri ön plana çıxır. Elçin Hüseynbəyli bu mövzunu daha da müasirləşdirir. Romanda Orxon-Yenisey abidələri yalnız qədim yazı nümunəsi deyil, həm də türk xalqının dövlətçilik düşüncəsinin və milli dəyərlərinin güclü ifadəsi kimi diqqəti çəkir. Romanda hökmdarla xalq arasındakı münasibətlər, birliyin əhəmiyyəti, ədalət, əxlaq və ənənələrin qorunması kimi vacib prinsiplər ön plana çəkilir. Burada dövlətin möhkəmliyinin xalqın həmrəyliyi və düzgün idarəçiliklə bağlı olduğu aydın şəkildə göstərilir.

Romanda yer alan Bilgə Kağan, Kül Tigin kimi şəxsiyyətlər türk tarixində birlik, müstəqillik və güclü dövlət ideyasının simvolu kimi təqdim olunur. Elçinin "Gültəkin xaqan" romanında Bilgə Kağan surəti həm tarixi şəxsiyyətin bədii təcəssümü, həm də dövlətçilik ideyasının simvolu kimi təqdim olunur.

Bilgə Kağan əsərdə uzaqgörən, müdrik və xalqının taleyinə məsuliyyətlə yanaşan hökmdar kimi təsvir edilir. Onun əsas xüsusiyyətlərindən biri siyasi düşüncə qabiliyyətidir. O, yalnız döyüş meydanında deyil, həm də idarəçilikdə güclüdür. Müəllif onu emosiyalara qapılan deyil, daha çox düşünərək qərar verən lider kimi göstərir. Bu xüsusiyyət Bilgə Kağanın dövlətin sabitliyini qorumasında mühüm rol oynayır. Eyni zamanda, Bilgə Kağan xalqına bağlı hökmdardır. O, sadəcə hakimiyyət sahibi deyil, millətin rifahını düşünən bir liderdir. Xalqın rifahı, birliyi və gücü onun üçün prioritetdir. Bu baxımdan obrazda ideal hökmdar modeli yaradılıb. Onun nitqlərində və davranışlarında tez-tez milli birlik, vətən sevgisi və dövlətin qorunması ideyaları ön plana çıxır.

Romanda Bilgə Kağanın daxili dünyası da müəyyən qədər açılır. O, yalnız güclü hökmdar deyil, həm də məsuliyyət yükünü daşıyan insandır. Bəzən tərəddüdləri, qərar vermə prosesindəki çətinlikləri onun obrazını daha real və canlı edir. Bu isə obrazı sxematik qəhrəmanlıqdan uzaqlaşdırır. Bilgə Kağanın digər obrazlarla münasibəti də onun xarakterini açır. O, ətrafındakı insanlara qarşı diqqətli və seçicidir, sadiqliyi qiymətləndirir, xəyanəti isə bağışlamır. Bu xüsusiyyətlər onun dövlət idarəçiliyində prinsipial mövqeyini göstərir.

Bilgə kağanın qardaşı Gültəkin romanında əsərin əsas ideya yükünü daşıyan qəhrəmanlardan biridir və həm tarixi, həm də bədii baxımdan çoxqatlı şəkildə təqdim olunur. Gültəkin ilk növbədə igid, cəsur və döyüşkən bir qəhrəman kimi təsvir edilir. O, türk döyüşçüsünün ideal obrazıdır: qorxmaz, vətənə bağlı və mübariz. Döyüş səhnələrində onun fiziki gücü, çevikliyi və hərbi bacarığı ön plana çıxır. Lakin müəllif onu yalnız bir savaşçı kimi təqdim etmir; Gültəkin həm də yüksək mənəvi keyfiyyətlərə malik bir şəxsiyyətdir.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2026*
*Səh. 353-359*

Onun xarakterində ən diqqətçəkən cəhətlərdən biri sədaqətdir. Gültəkin dövlətinə, xaqanına və xalqına sadiqdir. Bu sədaqət kor-koranə deyil, dərk olunmuş, şüurlu bir bağlılıqdır. O, anlayır ki, dövlətin gücü xalqın birliyindən keçir və bu birliyi qorumaq üçün şəxsi maraqlarını belə arxa plana atmağa hazırdır.

Eyni zamanda, Gültəkin obrazında daxili mübarizə də hiss olunur. O, bəzən qarşılaşdığı hadisələr fonunda düşünür, tərəddüd edir, lakin sonda doğru yolu seçməyə çalışır. Bu xüsusiyyət onu canlı və real edir, oxucuya daha yaxınlaşdırır. Onun psixoloji dərinliyi obrazın bədii dəyərini artırır.

Gültəkin həm də milli kimliyin və qəhrəmanlıq ruhunun daşıyıcısıdır. Onun davranışlarında, qərarlarında və münasibətlərində türkçülük ideyası, vətən sevgisi və azadlıq arzusu aydın şəkildə görünür. Bu baxımdan, o, yalnız fərdi qəhrəman deyil, bütöv bir xalqın ruhunu təmsil edir.

Digər obrazlarla münasibətdə Gültəkin dürüst və prinsipialdır. O, dostluğa sadiq, düşmənə qarşı isə amansızdır. Ədalət hissi güclüdür və bu xüsusiyyət onun qərarlarında özünü açıq şəkildə göstərir.

Gördüyümüz kimi, Bilgə Kağan obrazı romanda güclü dövlətçilik ideyasını, milli kimliyi və liderlik keyfiyyətlərini təcəssüm etdirən mərkəzi fiqurlardan biri olub, həm tarixi yaddaşın qoruyucusu, həm də gələcək nəsillər üçün nümunəvi hökmdar obrazı kimi təqdim olunur. Gültəkin surəti də romanda qəhrəmanlıq, sədaqət, vətənpərvərlik və mənəvi bütövlüyün simvoludur. O, həm tarixi şəxsiyyətin bədii təcəssümü, həm də Elçin Hüseynbəylinin ideal insan və döyüşçü modelidir.

Onların fəaliyyəti qəhrəmanlıq, vətənə xidmət, uzaqgörən idarəçilik və cəsarət nümunəsi kimi verilir. Eyni zamanda bu yazılarda keçmiş hadisələrin təsviri fonunda gələcək nəsillərə ibrətamiz tövsiyələr də var.

Və yazıçı haqlıdır ki, türk dünyasının birliyi məsələsi bəşəriyyət mövcud olduğu bütün dövrlərdə aktualdır. "Gültəkin xaqan" romanı bu abidələrin ruhunu və ideyalarını ədəbiyyat dilində yenidən canlandırır, tarixi hadisələri və qəhrəman obrazlarını müasir oxucuya çatdırır. Abidələr də, roman da xalqların tarixdən dərs almaq və milli birlik üçün əcdadların nümunəsindən ilham almaq ideyasını güclü şəkildə vurğulayır.

Abidələrdə və romanda əsas ideya millətin birliyi, dövlətçilik ənənələrinin qorunması və milli irsin yaşadılmasıdır. Qəhrəmanlar və hökmdarlar vasitəsilə göstərilir ki, xalqın gücü onun birliyindən, milli dəyərlərə sadiqliyindən və əcdadlarının qəhrəmanlıqlarından doğur. Bu ideya həm keçmişin xatirəsini qoruyur, həm də gələcək nəsillərin milli şüurunu formalaşdırır.

"Xaqan əlini yuxarı qaldırıb dedi:

- Göy Tanrı yardımçımız olsun, mənim türk budunum! Mən onun sayəsində taxta oturdum. Türk budunum yaşasın deyə. Ondan öncə Göy Tanrı atam İltəriş (Eltəriş) xaqanı, anam İlbilgə (Elbilgə) xatunu səmadan yerə endirmiş, taxta çıxartmışdı. Atam Tanrının sözlərini eşitdi və türk xalqını bütövləşdirdi. Ona qədər

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2026*
*Səh. 353-359*

xitayların (çinlilərin) yağlı dilinə, qumaşlarına, qızlarına aldanmış bəylərimiz, xanlarımız türk qövmünü itirmişdi. Göy basmadısa, yer ayrılmadısa, xalqımız hara yox oldu? Şükürlər ki, indi budunumuz da var, bəylərimiz də. Sağ tərəfimdə tarxanlar, buyruq bəyləri və təkinlər, sol tərəfimdə şadlar, arxamda isə öz soyumdan olan millətim var. Babamızın, əmimizin qazandığı millətin ad-sanı unudulmasın deyə qardaşımla sözləşdik. Türk milləti üçün gecə uyumadıq, gündüz oturmadıq. Gültəkinlə, buyruq bəylərilə var gücümüzlə çalışdıq.

Ey mənim türk millətim, babalarımızın ruhu dolaşan ilk damğamız yadellilərin əlindədir. Onu bizdən aldılar. Ona görə də məğlub olduq. Onu geri almasaq, millət kimi yaşaya bilmərik. Damğamızı və baydağımızı (bayrağımızı) geri almaq üçün türk boylarını bir yerə yığmalıyıq. Bax, onda güclü dövlət qura bilərik. Çünki o damğa bizə güc verirdi. Əlimizdən gedəndən sonra gücdən düşdük. Ellərimiz yağmalandı, tar-mar oldu. Ərlik oğlanlarımız çinlilərə qul, gəlinlik qızlarımız cariyə oldular!

Biz indi böyük sınaq qarşısındayıq. Atam İltəriş xaqan, əmim Qapağan xaqanın vəsiyyətini yerinə yetirməliyik. Yəcuc-məcuclar (xitaylar, çinlilər) onlara boyun əyən öz bəylərimiz sayəsində əmim Qapağan xaqanı pusquya salıb öldürdülər və damğamızı, bayrağımızı özlərilə apardılar.

Düzdür, əmim sərt təbiətliydi: öcü də vardı, gücü də, öfkəsi də vardı, ötkəmi də. Nəfəsi od qarsar, qılıncı şimşək təki çaxardı...

Biz xainləri cəzalandırdıq..."

"Gültəkin xaqan" romanında bu ideya daha dramatik və emosional şəkildə ifadə olunur. Bilgə Xaqanın nitqi vasitəsilə milli yaddaş, tarixi ədalət və qürur vurğulanır, milli birlik üçün həm əxlaqi, həm də siyasi məsuliyyət çağırışı verilir. Həmçinin, simvolik vasitələrlə – "damğa", "bayraq", "qurd və qoyun" kimi obrazlarla – milli gücün və birliyin əhəmiyyəti oxucuya aydın göstərilir.

Damğa və bayraq milli birliyi, gücü və tarixi mirası simvolizə edir. Qurd və qoyun isə xalqın gücü və zəifliyini əks etdirir. Eyni zamanda qəhrəmanların daxili dünyası, qorxuları və arzuları təsvir edilir, bu isə modernist ədəbiyyata xasdır.

Bilgə Xaqanın nitqi vasitəsilə həm ictimai, həm də şəxsi fikir və hisslər oxucuya çatdırılır.

Keçmiş və indiki zaman bir-birinə nüfuz edir, oxucuya tarixi hadisələrdən müasir dərs çıxarmağa imkan verir.

## NƏTİCƏ

Orxon-Yenisey abidələrinin ruhunu daşıyan "Gültəkin xaqan" əsəri oxucunu tarixi şüurla təmin edir, milli kimliyi möhkəmləndirir və vətənpərvərlik hissini gücləndirir. Hər iki əsər göstərir ki, xalq yalnız birliyini və milli dəyərlərini qoruyarsa, güclü və davamlı dövlət qurmaq mümkündür. Tarixi ədalətin bərpası, əcdadlara hörmət və milli mirasa sahib çıxmaq isə romanda əsas motivlərdən biri kimi daha çox qabardılır. Bu da yazıçının zamanın nəbzini tuta bilməsindən irəli glir.

(ardı var)

**GULXANI SHUKUROVA**

**The artistic reflection of Turkic unity and Turkism ideas in Elchin Huseynbeyli's novel *"Gultekin Khagan."***

**SUMMARY**

The article analyzes the artistic representation of Turkic unity and Turkism in Elchin Huseynbeyli's novel *"Gultekin Khagan."* It emphasizes that the historical novel plays a crucial role in preserving national memory and shaping national identity. The Orkhon-Yenisei inscriptions, which serve as a key source for the novel, are presented as an important written heritage reflecting ancient Turkic statehood, patriotism, and unity.

Through the characters of Bilge Khagan and Gultekin, the novel highlights ideas of strong statehood, leadership, loyalty, and heroism. It presents Turkic unity from historical, cultural, and political perspectives, showing that the strength of a nation lies in its solidarity. The preservation of national values, historical memory, and the formation of national consciousness among future generations form the core of the work.

The article also points out the modernist features of the novel, including psychological depth, symbolism, and non-linear time structure. It concludes that *"Gultekin Khagan"* holds an important place in Azerbaijani literature as an artistic expression of Turkism and remains relevant in the modern era.

**Keywords: Gultekin Khagan, Elchin Huseynbeyli, Turkism, Turkic unity, historical novel, national identity, Orkhon-Yenisei inscriptions, statehood, heroism, modernism**

**РЕЗЮМЕ**

**Художественное отражение идей тюркского единства и тюркизма в романе Эльчина Гусейнбейли *«Гюльтекин каган».***

В статье анализируется художественное отражение идей тюркского единства и тюркизма в романе Эльчина Гусейнбейли *«Гюльтекин каган»*. Подчеркивается, что исторический роман играет важную роль в сохранении национальной памяти и формировании национальной идентичности. Орхоно-Енисейские памятники, являющиеся основным источником произведения, рассматриваются как важное письменное наследие, отражающее древние традиции государственности, патриотизм и идею единства тюркских народов.

Через образы Бильге-кагана и Гюльтекина в романе раскрываются идеи сильной государственности, лидерства, верности и героизма. Произведение

представляет тюркское единство в историческом, культурном и политическом аспектах, подчеркивая, что сила народа заключается в его сплоченности. Основное внимание уделяется сохранению национальных ценностей, исторической памяти и формированию национального самосознания будущих поколений. Также в статье отмечаются модернистские особенности романа: психологизм, символизм и нелинейное восприятие времени. Делается вывод, что роман *«Гюльтекин каган»* занимает важное место в азербайджанской литературе как художественное выражение идей тюркизма и сохраняет свою актуальность в современности.

**Ключевые слова:** Гюльтекин каган, Эльчин Гусейнбейли, тюркизм, тюркское единство, исторический роман, национальная идентичность, Орхоно-Енисейские памятники, государственность, героизм, модернизм

## ÖZET

### Elçin Hüseynbeyli'nin *"Gültekin Kağan"* romanında Türk birliği ve Türkçülük fikirlerinin sanatsal yansıması.

Bu makalede Elçin Hüseynbeyli'nin *"Gültekin Kağan"* romanında Türk birliği ve Türkçülük fikirlerinin sanatsal yansıması incelenmektedir. Tarihî roman türünün millî hafızanın korunması ve millî kimliğin oluşumundaki önemi vurgulanır. Romanın temel kaynaklarından biri olan Orhun-Yenisey yazıtları, eski Türk devlet geleneğini, vatanseverliği ve birlik düşüncesini yansıtan önemli bir miras olarak değerlendirilir.

Romanda Bilge Kağan ve Gültekin karakterleri üzerinden güçlü devlet anlayışı, liderlik, sadakat ve kahramanlık temaları öne çıkarılır. Eser, Türk birliğini tarihî, kültürel ve siyasî açılardan ele alır ve bir milletin gücünün birlikten doğduğunu ortaya koyar. Millî değerlerin korunması, tarihî hafızanın yaşatılması ve gelecek nesillerde millî bilinç oluşturulması eserin temelini oluşturur.

Makale ayrıca romanın modernist özelliklerine – psikolojik derinlik, sembolizm ve doğrusal olmayan zaman anlayışı – dikkat çeker. Sonuç olarak *"Gültekin Kağan"* romanının Türkçülük fikirlerinin edebî ifadesi açısından önemli bir eser olduğu ve günümüzde de önemini koruduğu belirtilir.

**Anahtar kelimeler:** Gültekin Kağan, Elçin Hüseynbeyli, Türkçülük, Türk birliği, tarihî roman, millî kimlik, Orhun-Yenisey yazıtları, devletçilik, kahramanlık, modernizm

**Rəyçi: Filologiya elmləri doktoru, professor Yeganə İsmayılova**